**SSR** BACKGROUNDER

TƏHLÜKƏSİZLİK SEKTORU İSLAHATI KÖMƏKÇİ MATERİALLARI

# HƏRBİ İSLAHATLAR

## Yaxşı təhlükəsizlik sektoru idarəçiliyi prinsiplərinin hərbi sahəyə tətbiqi

### Bu buraxılışla bağlı

**TSİ-ı Köməkçi materialları yaxşı təhlükəsizlik sektoru idarəçiliyi(TSİd) və təhlükəsizlik sektoru islahatı(TSİ) üzrə mövzulara qısa girişlər verir. Bu cür buraxılışlar indiki dövrdə gedən debatları ümumiləşdirir, əsas terminləri izah edir və geniş təcrübəyə əsaslanaraq əsas gərginlik doğuran məsələləri üzə çıxarır. TSİ Köməkçi materialları yaxşı idarəçilik və ya islahat üçün spesifik modelləri,siyasi proqramları və ya təklifləri təbliğ etmir,əksinə hər bir bu cür mövzular üzrə oxucuların biliklərinin artması üçün, onları əlavə vəsaitlərlə təmin edir. TSİ Köməkçi materialları yaxşı təhlükəsizlik sektoru idarəçiliyi (TSİd) və Təhlükəsizlik sektoru islahatı (TSİ) üzrə mövcud yanaşmaları anlamaq və tənqidi qiymətləndirmə aparmaq istəyən təhlükəsizlik sektoru idarəçiliyi və islahatı üzrə çalışan maraqlı tərəflər üçün nəzərdə tutulan vəsaitdir.**

DCAF Geneva Centre for Security Sector Governance

## TSİ-ı Köməkçi materiallarına daxil olan bu mövzu ilə bağlı

Bu Köməkçi materiallar, təhlükəsizlik sektoru yaxşı idarəçiliyi prinsiplərinin hərbi islahatlar vasitəsilə hərbi sahəyə tətbiq edilməsi barəsindədir. Ordu, ölkənin və onun əhalisinin müdafiəsinə cavabdehdir. Demokratik nəzarət gücləndikdə, hərbi islahatlar, hərbi gücdən əhalinin iradəsi və müdafiəsinə uyğun olaraq istifadə edilməsinə imkan verir. Hərbi islahatlar orduya imkan verir ki,o öz mandatından məhsuldar və təsirli şəkildə istifadə etsin və dinamik təhlükəsizlik mühitində çevik hərəkət edə bilsin.

## Bu TSİ-ı Köməkçi materialları aşağıdakı suallara cavab verir:


- Hərbi islahat nə deməkdir? ................................2
- Nəyə görə hərbi islahat? ...................................4
- Hərbi islahatları kim aparır? ...............................5
- Hərbi islahat prosesi neçə işləyir? .....................6
- Hərbi islahatı TSİd-i və TSİ-a nə bağlayır? .........7
- Hərbi islahat qarşısındakı maneələri necə dəf etmək olar? .......................................................8


## Hərbi İslahat nədir?

Hərbi islahat, TSİ –ı kontekstində hərbi və müdafiə sektoru üzərində demokratik nəzarət və baxışı gücləndirir və onların hər ikisini daha da təsirli,hesabatlı və həyata keçirilə bilən edir. (Silahlı qüvvələr üzərində demokratik nəzarət üzrə daha geniş məlumat üçün, “Təhlükəsizlik Sektoru İdarəçiliyi” və “Silahlı qüvvələr üzrə “ TSİ-ı Köməkçi materiallarına baxın).

Hərbi islahat hököməti,ordunu və əhalini nəzərdə tutmalıdır. Daha yaxşı davranış və mədəniyyət dəyişikliyi təhlükəsizlik qüvvələri ilə onların qoruduqları əhali arasındakı münasibətləri yaxşılaşdıra bilər. Eyni zamanda, ordu hökümətin siyasətinə cavab verməli və özünün effektivliyini hər zaman saxlamalıdır. Cavablayıcı və demokratik təhlükəsizlik sektoru idarəçiliyi olduqda,hökümətin müdafə siyasəti əhalinin iradəsini əks etdirən müdafə siyasətini təmin edir.

Bu cür münasibətlərin formasının dəyişməsi üçün,hərbi islahat aşağıdakıları etməlidir:

- Ölkənin orta və uzun müddət ərzində üzləşdiyi təhlükələri,riskləri və təhdidləri aydınlaşdırmaq üçün **strateji mühiti qiymətləndirməli;**
- Silahlı qüvvələr və mülki müdafiə sektoru təsisatlarının əməliyyat rolları və məqsədlərini gözdən keçir**məli;**
- Hərbi sektor və başqa təhlükəsizlik təminatçıları arasındakı münasibətlərə və həmçinin, hərbi təsisatlar üzərində nəzarət və idarəetmə orqanları arasındakı münasibətlərə yenidən bax**malı;**
- Silahlı qüvvələr və hərbi təsisatlar üçün **büdcə prioritetləri,fəaliyyət planları və islahat proqramları** hazırlamalı.

Planlar qurulandan sonra,hərbi islahat fəaliyyətləri texniki və ya inzibati ola bilər və məsələn, bir neçə sahəni əhatə edə bilər: Məsələn,

- Hərbi doktrina,müharibə qaydaları və əməliyyat üsullarını;
- Silah sistemləri,loqistika və hərbi infrastrukturanı;
- Qüvvələrin sayı və strukturunu;
- İdarəetmə və büdcə sistemlərini;
- Kadr siyasəti (peşəkarlıq,orduya çağırış, təlim, rütbə artırma,istefa və ölkənin hərbi rəhbərliyinin təmsil olunması);
- Xidmətlər arası(bəzən “birgəlik” adlandırılır) və ölkə daxilində və xaricində yerləşən təhlükəsizlik sektorunun hissələri ilə münasibətlər( bəzən “qarşılıqlı uzlaşma” adlanır).
- Qüvvələr arasında, media və ictimaiyyət arsındakı xəbərləşmə siyasəti;
- Demokratik mülki- hərbi münasibətlər;
- Ordu daxilində və onun apardığı əməliyyatlar zamanı qanun aliliyi və insan hüquqlarına hörmət.

### Silahlı qüvvələr və hərbi sektor

Hərbi sektor hərbi gücə məsul olan dövlət idarəçilyinin bir sahəsidir. Adətən o silahlı qüvvələri,onların siyasi rəhbərliyini( ali baş komandan,müdafiə naziri), icra – nəzarət hakimiyyətini(prezident,baş nazir) və müvəqqəti və daimi şəkildə hərbi işlərə cəlb olunan başqa dövlət agentliklərini əhatə edir. Bəzi hallarda, hərbi sektora hərbi sənaye daxilindəki kommersiya xidməti təminatçıları da daxil olur.

Hərbi sektorun adətən üç rolu olur.

1. Əməliyyat tapşırıqları,yəni hərbi əməliyyatların komandanlığı və yerinə yetirilməsi;

2. İnsan qaynaqlarının idarəetməsi,yəni, orduya çağırış, təlim və kadrların idarəetməsi, həmçinin,əməliyyat planlaşdırması;

3.Maliyyə və texniki idarəetmə,yəni,büdcələmə,maliyyə idarəetməsi,hərbi satınalmalar və hökümətə texniki məsləhətlərin verilməsi.

Silahlı qüvvələr, əsas məqsədi xarici təhlükələrə qarşı ölkənin müdafiəsi üçün dövlət tərəfindən qurulan təsisatlardır. Onlar həmçinin daxili münaqişələr və təbii fəlakətlərə cavab vermək üçün də səlahiyyətləndirilə bilər. Onların tərkibinə nizami, köməkçi və ehtiyat hərbi qüvvələri də daxil ola bilər. (Silahlı qüvvələrin yaxşı TSİd-ə rolu və məsuliyyətləri ilə əlaqədar geniş məlumat almaq üçün “Silahlı Qüvvələr” Köməkçi materiallara baxın).

## Nəyə görə hərbi islahat?

Hərbi islahat iki bir –biri ilə bağlı məqsədə malikdir: hərbi sektorun özünün üç əsas məqsədini həyata keçirmək üçün **iş qabiliyyətini** artırmaq(yuxarıdakı haşiyəyə bax) və demokratik idarəçilik, qanun aliliyi və insan hüquqları çərçivəsində **yüksək dürüstlük standardlarını** təmin etmək. Silahlı qüvvələrin effektivliyinin və məhsuldarlığının artırılması o zaman arzuolunandır ki, hökümət,parlament və ictimaiyyət təhlükəsizlik aktyorlarını hesabata çəkə bilsin. Daha çox iştirakçılıq, problemlərə reaksiya verməə,şəffaflıq və hesabatlılıq silahlı qüvvələrin və təhlükəsizlik sektorunun legitimliyini və onlara inamı bütövlükdə xalqın gözündə yaxşılaşdırır. Beləliklə, demokratik mülki nəzarətin,qanun aliliyi və insan hüquqlarının gücləndirilməsi öz missiyası dövləti və onun vətəndaşlarını qorumaq üçün nəzərdə tutulan silahlı qüvvələr və müdafiə sektoruna öz işini daha yaxşı həyata keçirməyə kömək edir.

### Yaxşı təhlükəsizlik sektoru idarəçiliyi(TSİd) və təhlükəsizlik sektoru islahatı(TSİ).

Yaxşı TSİd, normativ standard olub,dövlətin təhlükəsizlik sektorunun demokratik sistemdə necə işləməsini göstərir.Yaxşı TSİd-nin prinsipləri hesabatlılıq, şəffaflıq, qanun aliliyi,iştirakçılıq, vaxtında problemlərə reaksiya verilməsi,effektivlik və məhsuldarlıqdan ibarətdir.

Təhlükəsizlik sektoru təkcə təhlükəsizlik təminatçılarından ibarət deyil, buraya həm ölkə səviyyəsində və həm də yerli səviyyədə təhlükəsizlik idarəetməsi və nəzarəti ilə bağlı olan bütün təsisatlar və təhlükəsizlik sektoru qulluqçuları da aiddir.

Yaxşı TSİd –nin qurulması təhlükəsizlik sektoru islahatının məqsədidir. TSİ siyasi və texniki proses olub təhlükəsizliyin təmin edilməsini, idarəetməsini və onun üzərində nəzarəti mülki demokratik nəzarət,qanun aliliyi və insan hüquqları çərçivəsində daha da effektiv və daha da hesabatlı etməklə dövlətin və əhalinin təhlükəsizliyini yaxşılaşdırmaqdır. TSİ sadəcə dövlət təhlükəsizliyi təminatının bir hissəsinə fokuslana bilər və ya bütöv sistemin işinə fokuslana bilər, burada əsas məsələ effektivlik və məhsuldarlığın yaxşılaşdırılmasıdır.

Bu əsas təriflər haqqında daha ətraflı məlumat almaq üçün “Təhlükəsizlik Sektoru İdarəçiliyi” və “Təhlükəsizlik Sektoru İslahatı” üzrə TSİ Köməkçi materiallarına isnad edin.

Hərbi islahatın **prioritetləri** hər bir ölkənin siyasi vəziyyətindən asılı olaraq dəyişir:

- **Inkişaf etmiş demokratik ölkələrdə** hərbi islahat mövcud hərbi və müdafiə təsisatlarının **hesabatlılığını,effektivliyini və iqtisadi baxımdan saxlanıla bilən olmasını** yaxşılaşdırmaq üçün aparılan davamlı prosesdir.
- **Keçid dövrü yaşayan ölkələrdə** hərbi islahat **demokratik nəzarət sisteminin güclü olduğu daha effektli ölkə müdafiəsinə** fokuslanır .
- **Münaqişədən zərər çəkən ölkələrdə** hərbi islahat **zorakılığı önləməklə və ya ona cavab verməklə** ölkənin sabitliyini yaxşılaşdırmaq məqsədi güdür; Bu məqsədlərə çatmaq vasitələri geniş demokratik təhlükəsizlik idarəçiliyi, barış tədbirləri və iştirakçılıqdır.

## Münaqişə sonrası vəziyyətlərdə hərbi islahat

Münaqişədən çıxan ölkələr hərbi islahat apardıqda özəl problemlərlə üzləşirlər,məsələn:

- Cəmiyyətin və silahlı qrupların hərbisizləşdirilməsi;
- Silah anbarlarının idarə edilməsi və artıq silahların məhv edilməsi;
- Ölkənin yeni silahlı qüvvələrinin qurulması;
- Bütün münaqişə tərəflərində xidmət edən keçmiş döyüşçülərin təhlükəsizlik xidmətlərinə qəbul edilməsi;
- Müharibə cinayətləri və başqa insan hüquqları pozuntuları ilə məşğul olunması;
- Silahlı qüvvələrdən gələn qorxu və inamsızlıq irsinin aradan qaldırılması,o cümlədən, cəzasızlığın bitirilməsi və pis davranışa qarşı sıfır-dözümlülük siyasətinin qəbul edilməsi.
- Hərbi sektorun münaqişə zamanı əldə etdiyi korrupsiya irsinə qarşı mübarizə.

## Müdafiə sektorunda gendər bərabərliyinə nail olunmanın üstünlükləri

Gendər bərabərliyi köklü insan hüquqları və demokratik ədaləti gücləndirməklə təhlükəsizlik sektorunun iş qabiliyyətini yaxşılaşdırır(“Gendər Bərabərliyi və Yaxşı Təhlükəsizlik Sektoru İdarəçiliyi” və “Gendər Bərabərliyi və Yaxşı Təhlükəsizlik Sektoru İslahatı” üzrə TSİ Köməkçi materiallarına baxın).

- **Daha yaxşı iş qabiliyyəti;** hər hansı bir xüsusi ölkədə bütün cinslərlə iş görmək baxımından gendər bərabərliyi taktiki üstünlüklərə malikdir;iş mühitinin cinslə bağlı analizini aparmaqla iş görmə üstünlüklərinə malikdir; qərar vermə prosesində tam rəngarənglik keyfiyyəti artırdığından strateji üstünlüklərə malikdir.
- **Hüquqların və toxunulmazlıqların qorunması:** Gendər bərabərliyi demokratik mülki nəzarət,qanun aliliyi və insan hüquqlarına hörmət prinsiplərinin tərkib hissəsidir. Təhlükəsizliyin təmininə, idarəetməsinə və təhlükəsizlik sektoru üzərində nəzarətə və həmçinin,gendər əsaslı təhlükəsizlik ehtiyaclarına reaksiya verilməsi bütövlükdə müdafiə sektorunda normalara riayət edilməsinin ölçülməsi baxımından vacib etalonlardır.

## Hərbi islahatları kim aparır?

Müdafiə nazirliklərinin (və ya departamentlərinin) mülki rəhbərliyi hərbi islahatları aparmaqda daha yaxşı vəziyyətdədirlər. Bu mürəkkəb prosesi aparmaq üçün nazirlik uyğun mülki və hərbi təcrübəyə malik olmalıdır. Geniş miqyaslı prosess həm ölkədaxili və həm də beynəlxalq aktyorları və həmçinin hərbi sektorda rolu olan dövlət və özəl təsisatları da nəzərə almalıdır.(bax: şəkil 1).

Milli təhlükəsizlik şurası və ya hərbi komissiya hərbi siyasətləri və strategiyaları formalaşdırır və müdafiə sektorunun fəaliyyətini demokratikləşdirir.

Silahlı qüvvələrin bütün qolları,o cümlədən, mülki heyət, hərbi islahatların planlaşdırılması və yerinə yetirilməsi işlərinə cəlb oluna bilər.

Nazirliklər və hərbi departamentlər bu siyasətə rəhbərlik edir və hərbi xarakterli başqa nazirliklərlə işləyib bu islahatları həyata keçirir.

Çoxtərəfli və donor təşkilatları və ya regional təşkilatlar islahat prosesində fondlar,dəstək və təcrübə vasitəsilə əsas rol oynaya bilər.

Daxili təhlükəsizlik təminatçıları,yəni.jandarma,polis, kəşfiyyat xidmətləri, sərhəd xidməti və kömrük xidməti çox zaman silahlı qüvvələrlə əməkdaşlıq edirlər.




Özəl hərbi və təhlükəsizlik şirkətləri və ya hərbi sənaye öz işlərini ordu ilə təhlükəsizlik məqsədləri üçün koordinə etməli və ya onlar təhlükəsizlik islahatlarına cəlb olmalıdırlar.

Müdafiə və təhlükəsizlik komitələri müdafiə məsələləri üzrə qanunlar hazırlayır büdcələrə nəzarət edir və sorğular keçirir.

Media müd. işləri üzrə xəbərlər verir,düşüncə mərkəzləri tədqiqat aparır və təlim keçir və siyasi partiyalar siyasi proqramlar hazırlayır. Yerli icmalar isə hərbi qüvvələrin harada yerləşməsindən narahat olur.

Hərbi ədliyyə sistemi silahlı qüvvələrin hesabatlı olması və insan hüquqları və qanun aliliyinə hörməti təmin edir.

Şəkil1: Hərbi islahatlara təhlükəsizlik sektoru və cəmiyyət boyunca geniş sayda

## Hərbi islahat prosesi neçə işləyir?

Silahlı qüvvələrin rolu və dövlət müdafiəsinin tələbləri haqqında ictimai məsləhətləşmələr hərbi islahatları siyasi,iqtisadi və sosial kontekstə uyğunlaşdırmaq üçün yaxşı başlanğıc nöqtəsi ola bilər. Onda sonra, hərbi islahatın tipik elementlərinə aşağıdakılar daxil ola bilər:

- **Hərbi icmalın aparılması.** Hərbi icmal ordunun rolunun nədən ibarət olduğunu sual edib müəyyən edir,təhlükəsizlik mühitini və təhlükələri analiz edir və ictimai məsləhətləşmələr və məlumatlandırma prosesini əhatə edir. Ölkənin qanunu müntəzəm, geniş miqyaslı hərbi icmalı tələb edə bilər,lakin çox sayda ölkələr ancaq şərait tələb etdikdə bu cür icmalı aparırlar. Hərbi icmal daha geniş təhlükəsizlik icmalı prosesinin bir hissəsi ola bilər və ya mühüm hərbi transformasiyanın bir hissəsi ola bilər,lakin heç də hər bir hərbi islahat proseslərinin icmaldan sonra keçirilməsi vacib deyil.
- **Dizayn,planlaşdırma və məsləhətləşmə.** Hərbi islahat, əldə olan vasitələrlə və müəyyən edilmiş büdcə ilə arzu olunan nəticələrə nail olmaq üçün ordu və ordunun daimi strukturlarında çalışan mülki kadrlar tərəfindən və ya müvəqqəti yaradılmış komitələr və xüsusi komissiyalar tərəfindən planlaşdırılır. Hərbi sektorun daxilində və kənarda çalışan geniş tərkibli maraqlı tərəflərlə də xüsusilə də əhali ilə əlaqəli qərarlarla bağlı məsləhətləşmələr aparılmalıdır.
- **Planların yerinə yetirilməsi,onların monitorinqi və mövcud şəraitə uyğunlaşdırıl-**

**ması.** Effektiv hərbi islahat, islahatların yerinə yetirilməsi və nəticələri üzərində müşahidə mexanizmlərini tələb edir, bütün bunlar iş irəli getdiyi zaman və şərait dəyişdiyi zaman proqramların da dəyişdirilə bilməsi üçün edilir. Geniş islahat proqramlarının ömrünün bu proqramları irəli sürən hökümətin ömründən uzun olduğunu nəzərə alsaq, bu mexanizmlər xüsusi əhəmiyyət kəsb edir.

Diqqətli **maliyyə planlaşdırması və idarəetməsi** mühüm əhəmiyyət daşıyır, çünki hərbi islahat çox məsrəfli ola bilər- xüsusilə də, əgər yeni hərbi güc üçün ölkənin yatırım qoyması tələbi ortaya çıxan zaman. Proses boyunca məsrəflərin analizi,monitorinq və büdcələmə işlərinin aparılması islahata sabitlik və dayanıqlıq verir.

İctimaiyyətə d**avamlı məlumat verilməsi** hərbi rəhbərliyə və həmçinin əhaliyə islahatları başa düşməyə və köklü şəkildə qiymətləndirməyə kömək edir. İnformasiya kampaniyası, geniş miqyaslı hərbi islahatların yaxın və uzun müddətli faydalarını bu islahatlar nəticəsində meydana gələn qısa müddətli insani və sosial problemlər fonunda, və həmçinin, bu islahatların yaradacağı düşünülən birbaşa təhlükələri izah etmə baxımından da əhatə etməlidir.

Hərbi avadanlıqların xərcləri və uzun müddətli ömrü baxımından,çox sayda ölkələr **hərbi planlama sistemləri** irəli sürürlər. Məsələn,bu cür plan daha da spesifik və detallı olan planla(məsələn, 4 illik) uzun müddətli perspektivlərin toplusu ola bilər ( məsələn, 15 və ya 20 il). Hərbi islahat keçmiş qərarları da nəzərə almalı və eyni zamanda təhlükəsizlik sahəsində baş verəcək gələcək dəyişiklikləri, texnologiya inkişafını və demoqrafik dəyişiklikləri və həmçinin, cəmiyyətin özü haqqındakı baxışlarında baş verən dəyişiklikləri də öncədən görməlidir.

## Hərbi islahatı TSİd-i və TSİ-a nə bağlayır?

Hesabatlılıq və demokratik nəzarət nəzərə alınmayan və iş görmə qabiliyyətinə, təlim və ya avadanlığın texniki elementlərinə fokuslanan islahat cəhdləri TSİ-nın tərkib hissəsi sayıla bilməz və yaxşı TSİd-i sarsıda bilər. Hesabatlılıq hərbi sektor təsisatlarına və silahlı qüvvələrə idarəetmə zənciri vasitəsilə həm daxildən və həm də kənardan tətbiq edilir. Bu həm də müdafiə nazirliyinin işinə də aiddir.

Hərbi islahatların müdafiə sektorunda hesabatlılığı və şəffaflığı yaxşılaşdırmağa gətirən nəticələri və sonucları aşağıdakıları əhatə edir.

- **Yeni nəzarət təsisatları və ya prosesləri**,məsələn,mülki və hərbi qərargahları birləşdirən birləşmiş müdafiə nazirliyi, hərbi ombudsman və ya parlamentin müdafiə və təhlükəsizlik komitəsi;
- **Hərbi komandanlıq zəncirində dəyişiklik**;
- **Konstitusiya nəzarətinin artırılması** və ordu üzərində gücləndirilmiş mülki cəmiyyət monitorinqi;
- **Müdafiə sektoru haqqında daha dərin bilgi**, məsələn, silahlı qüvvələrin rolu və vəzifələri haqqında hərbi təhsil və ictimaiyyətin məlumatlandırılması istiqamətində yeni vəsaitlərin hazırlanması.

Daxili və xarici nəzarəti birləşdirən mexanizmlər həm də təhlükəsizlik xidmətlərinin hesabatlılığını artıra bilər,məsələn:

- **Hakimiyyətin bölünməsi:** Polis,sərhəd xidməti və başqa təhlükəsizlik xidmətləri açıq-aydın xətlə ordudan ayrı tutulmalıdır. Tələblərə cavab verən hüquqi çərçivə və mandatlar missiyalar və cavabdehlik sahələri arasında təhlükəsizlik boşluqlarının və səlahiyyətlərin üst-üstə düşməməsini təmin etməlidir.
- **Liderlik keyfiyyətləri:** daxili davranış kodeksləri,inzibati qaydalar və mədəniyyət məsələləri,o cümlədən vəzifə borcu və məsuliyyəti və həmçinin, ordu daxilində dürüstlük.
- **Hüquqi mexanizmlər**: Mülki və hərbi ədalət sistemləri ordunun dürüst fəaliyyətini təminat altına alan son mexanizmlərdir. İşlək ədalət sisteminin mövcud olduğu yerdə,hərbi qulluqçulara adətən xüsusi hüquqi prosedurlar şamil edilir,mülkilər isə mülki məhkəmələrdə məhkəmə prosedurunu keçirlər.
- **Mülki nəzarət:** Səlahiyyətli parlament təsisatları,həmçinin auditolar məhkəməsi,media və mülki cəmiyyət təşkilatları ordu üzərində demokratik nəzarəti təmin edilər.

## Hərbi islahat qarşısındakı maneələri necə dəf etmək olar?

Hər bir ölkə hərbi islahatlar apardığı zaman problemlərlə üzləşir,lakin yaxşı təhlükəsizlik sektoru idarəçiliyi prinsiplərinin təhlükəsizlik sektoru islahatı vasitəsilə tətbiq edilməsi bu problemlərin həll edilməsinə kömək edə bilər. Məsələn:

**Siyasi və təsisati müqavimət:** Hökümət və/və ya müəyyən hərbi təsisatlar dəyişikliklərə müqavimət göstərə bilər,çünki onların status-kvonun saxlanmasında köklü maraqları olur, ölkə üzərindəki təhlükəni fərqli qavrayır, ənənəvi baxışlar üstünlük təşkil edir və ya hakimiyyət və nəzarətin itirilməsi qorxusu olur. Digər tərəfdən,islahat üçün zəruri olan inam və əməkdaşlıq münaqişədən zərər çəkən ölkələrdə olmaya da bilər.

Kontekst analizi, münaqişə- həssasiyyətli yanaşma, islahatlara beynəlxalq və /və ya ictimai dəstək və maraqlı tərəflər arasında yaxşı TSİd-nin faydası haqqında məlumatlandırma siyasi müqavimətin aradan qaldırılmasına kömək edər(“ Yaxşı Təhlükəsizlik Sektoru İdarəçiliyi” üzrə TSİ Qeydlərinə baxın).

**Texniki problemlər:** Hərbi islahat planlaşdırması və idarəetməsi mürəkkəb məsələdir və həm hərbi və mülki hərbi ekspertlərin və mülki cəmiyyətin iştirakını və həm də ictimai məsləhətləşmələri tələb edir. Maliyyə vəsaitləri çatışmamazlıqları da islahatlara mane olur.

Fərqli qərar vermə prosesləri və təcrübə,bacarıqlar qurulması və kənardan dəstək verilməsi tələb olunan təcrübə və maliyyə resurslarının əldə olunmasına gətirər. Geniş TSİ proqramı çərçivəsində hərbi islahatların müəyyən edilməsi köməkedici olar( baxın: TSİ Qeydləri “Təhlükəsizlik sektoru islahatı”).

**Qeyri-müəyyənlik:** Hərbi islahatların potensial faydalarını qiymətləndirmək də çətin ola bilər və o zaman islahat,siyasətçilər və ictimaiyyət qarşısında riskli və ya əhəmiyyətsiz kimi də görünə bilər. Xalq da dəyişiklikdən qorxar, o cümlədən,ölkənin islahat dönəmində daha da zəif durumda görünməsi ehtimalı da ortaya çıxa bilər.

İslahata milli təhlükəsizlik siyasətinin icmalı kontekstində baxılarsa,ictimaiyyətlə daimi ünsiyyət və islahatın faydaları haqqında peşəkar maarifləndirmə olursa o zaman bu amil qorxunun aradan qaldırılmasına da kömək edər(baxın: TSİ Qeydləri “Milli Təhlükəsizlik.Siyasətləri”).

## Oxu üçün materiallar

*Hərbi islahatlar üzrə geniş onlayn vəsaitlərə çıxış üçün baxın:* http://issat.dcaf.ch/Learn/SSR-in-Practice/Thematics-in-Practice/Defence-Reform.

*Hərbi islahatların beynəlxalq siyasi standardlarını gözdən keçirmək üçün:*

- BMT Sülhməramlı Əməliyyatlar Departamenti Siyasi proqram: Müdafiə sektoru *İslahatı* Nyu-York : BMT, 2011.

- OECD İnkişafa Yardım Komitəsi
- Bölmə 7.2: Hərbi İslahatlar
- Təhlükəsizlik sistemi İslahatı üzrə OECD DAC Kitabçası :Təhlükəsizlik və Ədalətə dəstək, 124-139. Paris: İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), 2007.

*Hərbi idarəetmə və təsisat qurma* üzrə əlavə *məlumatlar* üçün*:*

- Harı-Bukur –Marku (Hari Bucur-Marcu) red. Hərbi Təsisat Qurulmasının Əsasları (Essentials of Defence Institution Building) Vyana, Genevrə: DCAF, 2009.
- Harı Bukur Marku, Filip Fluri, Todor Taqaryev (Hari Bucur-Marcu, Philipp Fluri and Todor Tagarev )(redaktorlar) Hərbi İdarəetmə: Giriş (Defence Management: An Introduction) Genevrə: DCAF, 2009.
  Vilyem Frederik van Eekelen və Filip Fluri (Willem Frederik van Eekelen and Philipp Fluri) (red.) Hərbi Təsisatların Qurulması: Əməkdaşlıq Fəaliyyət Planı-na dəstək Mənbələri. Vyana: Avstriya Müdafiə Akademiyası, 2006.

*Münaqişə sonrası vəziyyətlərdə hərbi islahatlar üçün əlavə məlumatlar:*

Mark Nayt ( Mark Knight)

TSİ: Münaqişə sonrası inteqrasiya (SSR: Post-conflict Integration)
Helpdesk Kueri. Birminhem: Birminhem Universiteti, Təhlükəsizlik sektoru İslahatı üçün Qlobal Dəstək Şəbəkəsi Avqust 2009.
( Helpdesk Query. Birmingham: University of Birmingham, Global Facilitation Network for Security Sector Reform, August 2009).

- Roy Liklider(Roy Licklider) (red.) Keçmişdən qalan yeni Ordular: Vətəndaş

Müharibəsi zamanı Rəqabətdə olan Hərbi Qüvvələrin Müharibədən sonra Birləşdirilməsi. Vaşinqton DC : GörcToun Universiteti buraxılışı,2014. (New Armies from Old: Merging Competing Military Forces after Civil Wars Washington, DC: Georgetown University Press, 2014.

Aleksandra Kerr və Mixail Miklauçiç( Redaktorlar) Effektiv, Qanuni, Təhlükəsiz: Hərbi Təsisatlar Qurulması barədə Düşüncələr , Vaşinqton DC: Milli Müdafiə Universiteti, Mürəkkəb Əməliyyatlar Mərkəzi, 2017. (Effective, Legitimate, Secure: Insights for Defence Institution Building Washington, DC: National Defense University, Center for Complex Operations, 2017. Alexandra Kerr and Michael Miklaucic (eds

- Valeri Ratçev(Valeri Ratchev ) Müdafiə Nazirliyinin Mülkiləşdirilməsi : Müasir Hərbi Təsisata Funksional Yanaşma Genevrə: DCAF,2011. (Civilianisation of the Defence Ministry: A Functional Approach to a Modern Defence Institution Geneva: DCAF, 2011.)

Benjamin Buklənd və Vilyam Macdermott. Silahlı Qüvvələrdə Ombudsman Təsisatları: Kitabça, Genevrə, DCAF, 2012. (Benjamin S. Buckland and William McDermott Ombuds Institutions for the Armed Forces: A Handbook Geneva: DCAF, 2012.)

- Todor Taqaryev (red). Orduda Dürüstlüyün qurulması və Korrupsiyanın azaldılması : Ən yaxşı Praktikalar Toplusu. Genevrə, DCAF,2010. (Todor Tagarev (ed.) Building Integrity and Reducing Corruption in Defence: A Compendium of Best Practices Geneva: DCAF, 2010).

- Çeril Hendriks və Lauren Hutton . Vəsait 3: Hərbi İslahat və Gendər, Gendər və Təhlükəsizlik sektoru İslahatı Vəsaiti Meqan Bastik və Kristin Valasek tərəfindən redaktə edilmişdir. Genevrə: DCAF, OSCE/ODIHR, UN-INSTRAW, 2008. (Cheryl Hendricks and Lauren Hutton Tool 3: Defence Reform and Gender in Gender and Security Sector Reform Toolkit, edited by Megan Bastick and Kristin Valasek. Geneva: DCAF, OSCE/ODIHR, UN-INSTRAW, 2008).

## Əlavə DCAF mənbələri:

- DCAF TSİ və TSİd-nin bütün məsələləri üzrə geniş tərkibli vəsaitlər,kitabçalar və rəhbər dərc edir və onları **www.dcaf.ch və ya https://securitysectorintegrity.com/defence-management** saytlarından yüklənə bilərsiniz..

  Çox sayda vəsaitləri ingilis dilindən başqa digər dillərdə də əldə etmək mümkündür.

  TSİ praktikləri üçün DCAF-ISSAT saytında onlayn olaraq çox sayda materilalar verilir: **http://issat.dcaf.ch**.

**Silahlı Qüvvələr Üzərində Demokratik Nəzarət üzrə Cenevrə Mərkəzi (DCAF)** beynəlxalq fond olaraq müxtəlif ölkələrə təhlükəsizlik sektorunda yaxşı idarəçiliyi və isla-hatları təşviq edir.
Mərkəz təhlükəsizlik sektorunda demokrtaik idarəçiliyi təmin etmək üçün normalar və standardlar hazırlayır və təşviq edir, dərin siyasi araşdırmalar aparır, ən yaxşı praktikaları və tövsiyələri aydınlaşdırır ölkədaxili səviyyələrdə məsləhətlər verir və praktiki kömək proqramları irəli sürür.

**DCAF aşağıdakı şəxslərə təşəkkür edir:**
Müəllifliyə görə Tammy Evans-a ;
Tədqiqat,yazı və redaktəyə etdiyi köməyə görə Ronja Harder və Jasper Linke-yə ;
İngilis dilində redaktə üçün Jenni Rouse-yə;
Fransız dilinə tərcüməyə görə Florens Lesur –a;
Fransız dilində redaktəyə görə Géraldine Chanteqrelə; və
Dizayn və buraxılışı yaymağa görə Petra Qurtner-ə

**Bu seriyanın redaktoru**
Fairle Çappuisdir

**Bu buraxılışa isnad**
Silahlı Qüvvələr Üzərində Demokratik Nəzarət üzrə Cenevrə Mərkəzi , “Hərbi İslahat”, TSİ Köməkçi materiallar seriyası
(Genevrə: DCAF, 2018)

© DCAF. TSİ Köməkçi materialları pulsuz olaraq aşağıdakı saytdan əldə etmək olar. www.dcaf.ch.
DCAF-ın adı isnad edilməklə istifadəçilər onun surətini çıxarıb yaya da bilərlər.
Kommersiya məqsədləri üçün istifadə edilə bilməz.